

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ *qapısı*

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 144 (21.805)

*2 avqust 2017-ci il, çərşənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının şura iclası keçirilib

***İclasda bu ilin birinci yarısında görülmüş işlər və qarşıda duran vəzifələr barədə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Elman Cəfərli məruzə edib.***

Bildirilib ki, müstəqil Azərbaycan dövlətinin quruculuq prosesi bilavasitə Yeni Azərbaycan Partiyasının fəaliyyəti ilə bağlıdır. 1992-ci ilin noyabrında Naxçıvanda ulu öndər Heydər Əliyevin liderliyi ilə yaradılan partiya dahi şəxsiyyətin milli dövlətçilik konsepsiyasını dönmədən həyata keçirib. Ölkəmizin siyasi, iqtisadi, mədəni yüksəlişində əhəmiyyətli rol oynayan, ümumxalq partiyasına çevrilən Yeni Azərbaycan Partiyası bu il özünün 25-ci ildönümünü böyük siyasi nailiyyətlərlə qeyd edir. Naxçıvan şəhərinin müasirliklə qədimliyin vəhdətinə, yüksək səviyyədə inkişafa bariz nümunə olan bugünkü siması məhz bu siyasətin nəticəsidir. Naxçıvanın 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi şəhərimizin beynəlxalq tədbirlərin keçirildiyi məkan kimi nüfuzunu daha da artıracaqdır.

Qeyd edilib ki, partiyanın Naxçıvan Şəhər Təşkilatı öz fəaliyyətini Yeni Azərbaycan Partiyasının 2013-cü ilin iyununda keçirilən V Qurultayı, partiyanın Muxtar Respublika Təşkilatının 2014-cü ilin noyabrında keçirilən V Konfransı və Muxtar Respublika Təşkilatı Siyasi Şurasının 2017-ci il martın 16-da keçirilən iclasında qarşıya qoyulan vəzifələrin ardıcıl icrası istiqamətində qurub. Təşkilat ölkəmizin, o cümlədən muxtar respublikamızın və Yeni Azərbaycan Partiyasının ümumi inkişaf tempinə adekvat fəaliyyət göstərməyə çalışıb. Bu baxımdan 2017-ci il üçün iş planında nəzərdə tutulan tədbirlərin vaxtlı-vaxtında və yüksək səviyyədə həyata keçirilməsi, ilk təşkilatlarla işin gücləndirilməsi, siyasi-ideoloji işdə və partiyaya yeni üzvlərin cəlb edilməsi məsələsində keyfiyyət amili prioritet vəzifə olub.



Diqqətə çatdırılıb ki, ötən müddətdə təşkilatda 6 İdarə Heyəti, 2 şura yığıncağı, əlamətdar və tarixi hadisələrlə bağlı 4 elmi-praktik konfrans, 2 kütləvi tədbir, 1 dəyirmi masa keçirilib. Bu dövrdə partiyaya 686 nəfər üzv qəbul olunub ki, bunların da 406 nəfərini (59 faiz) qadınlar, 668 nəfərini (97,4 faiz) gənclər təşkil edir. Nəticədə, 2017-ci il iyulun 1-nə Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı üzvlərinin sayı 16 min 650 nəfərə çatıb. Bunlardan 8 min 714 nəfəri qadınlar, 9 min 657 nəfəri gənclərdir.

Sonra məruzə ətrafında Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Qadınlar Şurasının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Yazgül Rzayevanın, ərazi ilk partiya təşkilatı sədrlərindən şura üzvü Elnur İbrahimovun, Gənclər Birliyinin üzvü Tünzalə Dilanovanın çıxışları dinlənilib.

İclasda Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı, şura üzvü Vüqar Səfərov çıxış edərək Naxçıvan şəhərində həyata keçirilən quruculuq işləri haqqında ətraflı məlumat verib, qarşıda duran vəzifələrdən danışıb.

## Cari ilin birinci yarısının yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib



*Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində bu ilin birinci yarısının yekunları və qarşıda duran vəzifələrə həsr olunan kollegiya iclası keçirilib.*

Kollegiya iclasını Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev açaraq məruzə ilə çıxış edib.

Bildirilib ki, nazirliyin əsas fəaliyyət istiqamətlərindən biri olan hüquqi maarifləndirmə və hüquqi təbliğat sahəsində həyata keçirilən tədbirlər davam etdirilib, muxtar respublikanın şəhər və rayonlarında bələdiyyə fəaliyyəti ilə bağlı bir sıra tədbirlər keçirilib.

Qeyd olunub ki, hər il olduğu kimi nazirliyin aparatında, Penitensiar Xidmətdə, cəzaçəkmə müəssisələrində, Məhkəmə Ekspertizası Mərkəzində və rayon (şəhər) məhkəmələrində icra və əmək intizamına riayət edilməsi ilə əlaqədar yoxlamalar davam etdirilib, nizam-intizamın daha da möhkəmləndirilməsi ilə bağlı tədris saatları təşkil edilib, ədliyyə qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı və etik davranış qaydalarına əməl edilməsi mövzularında seminarlar keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında” Sərəncamından irəli gələn vəzifələrə uyğun olaraq may ayında Naxçıvan Dövlət Universitetinin müvafiq ixtisaslarının tələbələri nazirliyin aparatında, Penitensiar Xidmətdə, Məhkəmə Ekspertizası Mərkəzində, Naxçıvan bələdiyyəsində olublar.

Ədliyyə naziri bildirib ki, cari ilin hesabat dövründə xidmətin icraatına daxil olan işlərin sayı 2016-cı ilin müvafiq dövrünə nisbətən 69 iş az olub. İcra işləri üzrə 227 borclunun ölkədən getmək hüququ müvəqqəti olaraq məhdudlaşdırılıb, 57 borclunun üzərinə qoyulmuş məhdudiyyət götürülüb.

Diqqətə çatdırılıb ki, Qeydiyyat və notariat şöbəsi tərəfindən bu ilin birinci yarısında qeyri-kommersiya hüquqi şəxs qeydiyyata alınmayıb, 2 qeyri-kommersiya hüquqi şəxs reyestrdən çıxarılıb. Vətəndaşlıq vəziyyəti aktları ilə bağlı təkrar şəhadətnamələrin verilməsi və sənədlərin leqallaşdırılması dövlət qeydiyyatı ilə bağlı 7300 manat rüsum dövlət büdcəsinə ödənilib. Əhaliyə göstərilən hüquqi xidmətin səviyyəsi artırılaraq muxtar respublikanın şəhər və rayon dövlət notariat kontorları tərəfindən 28976 müxtəlifməzmunlu notariat əməliyyatları aparılıb, dövlət büdcəsinə 187296,25 manat dövlət rüsumu ödənilib. Müqayisə göstərir ki, cari ilin hesabat dövründə ötən ilin müvafiq dövrünə nisbətən əməliyyat sayında 3657 fakt, dövlət rüsumunun həcmində isə 5092,25 manat artım olub. Bu müddət ərzində rayon (şəhər) Qeydiyyat şöbələri tərəfindən 5596 əməliyyat aparılıb və dövlət büdcəsinə 8320 manat dövlət rüsumu ödənilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

Kollegiya iclasına Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev yekun vurub.

*Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində 2017-ci ilin birinci yarımilinin yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş tədbir keçirilib.*



Tədbiri xidmətin rəisi, baş miqrasiya xidməti müşaviri Şahin Nəbiyev açaraq məruzə ilə çıxış edib. Bildirib ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş strateji inkişaf xəttinin uğurla davam etdirilməsi nəticəsində respublikamız iqtisadi inkişaf sürətinə görə dünya ölkələri içərisində öncül mövqelərdən birini tutub. Ötən illər ərzində muxtar respublikamız da sosial-iqtisadi baxımdan sürətlə inkişaf edib. İqtisadi fəallığın artması, yeni iş yerlərinin açılması, eyni zamanda miqrasiya sahəsində qanunvericiliyin sadələşdirilməsi və təhlükəsizliyin tam təmin edilməsi miqrantların axınını sürətləndirib, bu da, öz növbəsində, miqrasiya proseslərinə nəzarətin gücləndirilməsini zərurətə çevirib.

Qeyd olunub ki, hesabat dövründə xidmət tərəfindən muxtar respublika ərazisində qanunsuz yaşayan əcnəbi və vətəndaşlığı olmayan şəxslərin aşkar edilməsi istiqamətində müntəzəm tədbirlər həyata keçirilib, müəyyən edilmiş inzibati pozuntu halları ilə bağlı müvafiq qərarlar qəbul edilib. Belə ki, qeydiyyatsız olan, qanunsuz yaşayan, habelə qanunsuz əmək fəaliyyəti ilə məşğul olan 174 əcnəbidən 75-i barəsində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsinə əsasən cərimə inzibati tənbeh növü tətbiq edilib. Onların 82-si 48 saat müddətində ölkə hüdudlarından kənara çıxarılıb, 14-ü isə inzibati qaydada ölkə hüdudlarından kənara çıxarılmaqla girişlərinə müəyyən müddətə məhdudiyyət qoyulub. Bu dövr ərzində miqrasiya sahəsində qanunvericiliyin tələblərini pozmuş, lakin inzibati məsuliyyətə cəlb etməyə imkan verən yaş həddinə çatmamış 22 əcnəbi barəsində inzibati işin başlanılmasının rədd edilməsi barədə qərar qəbul edilib.

Vurğulanıb ki, 2017-ci ilin birinci yarımili ərzində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyatı ilə bağlı xidmətə, ümumilikdə, 4 min 574 müraciət daxil olub. Muxtar respublikada əcnəbilərin və vətəndaşlığı olmayanların haqqıödənilən əmək fəaliyyəti ilə məşğul olmaları üçün iş icazələrinin verilməsi ilə bağlı işəgötürənlər tərəfindən xidmətə 22 müraciət daxil olub. Onlardan 15-i icra edilib, 7-si isə hazırda icra mərhələsindədir. Bundan əlavə, həmin dövrdə Miqrasiya Məlumat Mərkəzinə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər və Azərbaycan Respublikasının vətəndaşları tərəfindən miqrasiya sahəsində qüvvədə olan qanunvericilik, müraciətlərin icrası vəziyyəti və digər məsələlərlə bağlı 164 müraciət olub. Hər bir müraciət tam, dəqiq və operativ cavablandırılıb.

Sonra məruzə ətrafında çıxışlar olub.

Tədbirə Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi, baş miqrasiya xidməti müşaviri Şahin Nəbiyev yekun vurub.

* * *

***Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyində keçirilən 2017-ci ilin birinci yarısının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclasını nəqliyyat naziri Mirsənani Seyidov açaraq məruzə edib.***

Nazir bildirib ki, ötən müddət ərzində muxtar respublikamızda nəqliyyat sektorunun inkişafı ilə bağlı verilmiş tapşırıqlarla əlaqədar qarşıda duran vəzifələr müəyyən olunub, onların həyata keçirilməsi istiqamətində səylər artırılıb. Xidmətin keyfiyyətinin artırılması məqsədilə ayda bir dəfə Naxçıvan Avtobus Parkında sərnişin daşımalarını yerinə yetirən sürücülərin və bu sahədə fəaliyyət göstərən sahibkarların iştirakı ilə ikigünlük seminar-müşavirələr təşkil edilib.

“Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 1 sentyabr tarixli Fərmanının icrası istiqamətində ötən altı ay ərzində nəqliyyata aid qanunvericilik aktlarının əhali arasında təbliğatı aparılıb, daşımalarla məşğul olan hüquqi və fiziki şəxslərin maarifləndirilməsi işi genişləndirilib, daha müasir, beynəlxalq standartlara cavab verən avtobuslar alınaraq istifadəyə verilib.



Bildirilib ki, muxtar respublikada avtonəqliyyat vasitələri və təhlükəsiz sərnişin daşınması, marşrut qrafikinə nəzarət olunması məqsədilə yeni texnologiyaların istifadəsinə başlanılıb. Vurğulanıb ki, hazırda Naxçıvanda şəhərdaxili marşrutlarda işləyən avtobuslara və taksilərə GPS-lərin quraşdırılması işləri davam etdirilir. Ümumilikdə, bu günə qədər 44 avtonəqliyyat vasitəsinə bu sistem quraşdırılıb.

Qeyd edilib ki, ötən dövr ərzində nəqliyyat sahəsində beynəlxalq əməkdaşlıq daha da genişləndirilib. Türkiyə Respublikasının “Metro” turizm şirkəti ilə bağlanmış müqaviləyə əsasən həmin ölkənin İqdır və Ərzurum şəhərlərinə və əks-istiqamətdə avtobus marşrutları açılıb. Türkiyə Respublikasının “Metro” turizm şirkəti ilə Naxçıvandan Türkiyənin müxtəlif şəhərlərinə, İran İslam Respublikasının “RaPeySaba” şirkəti ilə Naxçıvan-Urmiya istiqamətində, “Didari Seyri Giti” şirkəti ilə Naxçıvan-Təbriz-Tehran, habelə “TondPoyan” şirkəti ilə Naxçıvan-Bakı istiqamətində sərnişindaşıma xidməti göstərmək üçün müqavilələr bağlanılıb.

Hesabat dövründə muxtar respublikadakı avtovağzalların fəaliyyəti də diqqət mərkəzində saxlanılıb. Avtovağzallara baxış təşkil olunub, növbəti müddətdə görüləcək işlər müəyyənləşdirilib. Ötən il Naxçıvan Muxtar Respublikası Ali Məclisində turizmin inkişaf etdirilməsi və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə verilmiş tapşırıqların icrası davam etdirilib, taksi fəaliyyəti göstərən sürücülərin hər ay dörd dəfə qrup şəklində muzey ekskursiyaları təşkil olunub.

Nəqliyyat naziri onu da diqqətə çatdırıb ki, qanunsuz sahibkarlıqla məşğul olan avtonəqliyyat vasitələrinin müəyyən olunması üçün reydlər keçirilib. 24 nəfərlə yük və sərnişindaşıma fəaliyyətinə icazə verilməsi üçün müqavilə bağlanılıb, digərlərinin isə sənədləri cəza tədbiri görülməsi üçün aid təşkilatlara göndərilib.

İclasda məruzə ətrafında çıxışlar olub.

Naxçıvan Muxtar Respublikasının nəqliyyat naziri Mirsənani Seyidov tədbirə yekun vurub.

**Xəbərlər şöbəsi**

## Cari ilin birinci yarısının yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib



*Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyində keçirilən kollegiya iclasında nazir Natəvan Qədimova məruzə ilə çıxış edib.*

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamının icrası ilə bağlı ötən dövr ərzində Kəngərli, Şərur, Sədərək, Ordubad rayonlarında və Naxçıvan şəhərində olmaqla, 5 "Xalq yaradıcılığı günü" keçirilib. Naxçıvan Dövlət Filarmoniyasının, Naxçıvan Musiqi Kollecinin və Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin musiqi kollektivlərinin "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində keçirilən "Kətə" və "Göycə" festivallarındakı konsert proqramları maraqla qarşılanıb.

Diqqətə çatdırılıb ki, "Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr edilən muxtar respublikanın uşaq incəsənət və bədii sənətkarlıq məktəbləri şagirdlərinin rəsm müsabiqəsi" və bu münasibətlə təşkil olunan digər müsabiqənin qaliblərinin yekun konserti keçirilib.

Bildirilib ki, hesabat dövründə muzeylərin fəaliyyətlərinin günün tələbləri səviyyəsində qurulmasına diqqət artırılıb. Muzey fondlarının yeni eksponatlarla zənginləşdirilməsi sahəsində bir sıra işlər görülüb. Ötən dövr ərzində nazirliyin sistemində olan muzeylərə, ümumilikdə, 759 ədəd yeni eksponat daxil olub.

Hesabat dövründə kitabxanaların fəaliyyəti diqqət mərkəzində saxlanılıb, ümumilikdə, 231 tədbir keçirilib.

"Bəhs olunan dövrdə konsert-tamaşa müəssisələri də bir sıra işlər görüblər", – deyən nazir bildirib ki, C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında və Naxçıvan Dövlət Uşaq Teatrında bir sıra tamaşalar hazırlanıb.

Hesabat dövründə muxtar respublikanın turizm potensialının öyrənilməsi və təbliği diqqət mərkəzində saxlanılıb. Bakı şəhərində keçirilən "XVI Azərbaycan Beynəlxalq Turizm və Səyahətlər Sərgisi"ndə Naxçıvan Muxtar Respublikası stendlə təmsil olunub.

Bu dövr ərzində nazirliyin təşkilatçılığı ilə keçirilmiş tədbirlər Naxçıvan Turizm İnformasiya Mərkəzinin internet saytının xəbər bölümünə və mərkəzin sosial şəbəkələrdəki səhifələrinə yerləşdirilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

**Əli RZAYEV**

*Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsində cari ilin birinci yarısının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclas keçirilib.*

İclası giriş sözü ilə komitənin sədri Vaqif Rəsulov açaraq bildirib ki, 2017-ci ilin ilk yarımilində muxtar respublikanın sosial-iqtisadi həyatında baş verən dəyişikliklərin qeydə alınması, təhlil edilərək ümumiləşdirilməsi istiqamətində statistika orqanları tərəfindən qanunvericilik üzrə müəyyən tədbirlər görülüb.

Bəhs olunan dövr ərzində şəhər və rayon Statistika idarələri ilə birlikdə 7275 təsərrüfat subyektindən 20960 sayda hesabat yığılıb. Hesabatlar komitə aparatının müvafiq şöbələri tərəfindən ümumiləşdirilərək analiz edilib, muxtar respublika üzrə iqtisadi, sosial, demoqrafik və ekoloji sahələrin vəziyyətinə dair göstəricilər əldə edilib.

Bundan əlavə, cari ilin ötən dövrü ərzində muxtar respublikanın inzibati ərazi dairələrində təsərrüfat subyektləri gəzilərək göstəricilərin aktuallaşdırılması təmin olunub.

Komitə sədri bildirib ki, ötən dövr ərzində iş planına uyğun olaraq statistik vahidlərin dövlət reyestrində qeydiyyatda olan bütün müəssisələrlə əlaqə yaradılıb, müvafiq göstəricilər dəqiqləşdirilib.

Komitə aparatının müvafiq şöbələri tərəfindən Naxçıvan Muxtar Respublikasının iqtisadi və sosial sahələrini əhatə edən 22 adda təhlili məruzə, statistik bülleten və 10 adda tematik təhlili material hazırlanıb.



2017-ci ilin birinci yarımili ərzində komitə aparatının müvafiq şöbələri tərəfindən Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin internet saytında 2016-cı ilin yekunu və cari ilin ötən dövrü üzrə aylıq makroiqtisadi göstəricilərin, materiallarının və muxtar respublikada istifadəyə verilmiş obyektlərin fotoşəkillərinin yerləşdirilməsi işləri aparılıb.

Komitə sədri qeyd edib ki, bəhs olunan dövr ərzində kütləvi informasiya vasitələri ilə də sıx əlaqə saxlanılıb, muxtar respublikanın sosial-iqtisadi vəziyyətini əks etdirən tematik və kompleks materiallar dərc etdirilib.

Məruzə ətrafında çıxışlar dinlənilib.

Kollegiya iclasına komitə sədri Vaqif Rəsulov yekun vurub.

**Muxtar MƏMMƏDOV**

* * *

***Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsində 2017-ci ilin birinci yarısının yekunları və qarşıda duran vəzifələrə dair keçirilən iclası idarənin sədri vəzifəsini icra edən Orxan Abdullayev açaraq məruzə edib.***



Bildirilib ki, Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən banklar və kredit təşkilatları tərəfindən 1 iyul 2017-ci il tarixə muxtar respublika iqtisadiyyatına yönəldilən kredit qoyuluşu 101 milyon 825 min manat, o cümlədən qısamüddətli kredit qoyuluşu 5 milyon 324 min manat, uzunmüddətli kredit qoyuluşu isə 96 milyon 501 min manat təşkil edib. Kreditləşmədə əsas məqsəd aqrar sektorun inkişafı, ixraca yardım və daxili bazarı qorumaq, kiçik və orta sahibkarlığın inkişafına nail olmaqdır. Eyni zamanda muxtar respublika əhalisinə verilmiş 7 milyon 95 min manat məbləğində şəxsi istehlak kreditləri, daşınmaz əmlak alınması üçün 2 milyon 120 min manat məbləğində verilmiş ipoteka kreditləri vasitəsilə vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılması ilə bərabər, real sektor da dəstəklənib. 2017-ci ilin 6 ayı ərzində bank və kredit təşkilatları tərəfindən 11 milyon 307 min manat kredit verilmişdir ki, bunun da 2 milyon 382 min manatı qısamüddətli, 8 milyon 925 min manatı isə uzunmüddətli kreditlərdir.

Vurğulanıb ki, muxtar respublikada təklif edilən faiz dərəcəsi ölkəmizin iqtisadi rayonları arasında kreditlər üzrə tətbiq olunan ən aşağı faiz dərəcələridir.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təsdiq edilmiş "2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"a uyğun olaraq nağdsız ödənişlərin miqyasının genişləndirilməsi, elektron ödəniş xidmətlərindən istifadə aktivliyinin artırılması üçün müvafiq tədbirlər həyata keçirilib. Artıq muxtar respublikada vətəndaşların ödəniş kartları vasitəsilə vergi və rüsumları, Dövlət Yol Polisi, pasport və şəxsiyyət vəsiqəsi alınması üçün rüsumları, gömrük rüsumları, Dövlət Sosial Müdafiə Fondu və onun yerli şöbələrinə sosial sığorta haqlarını, mobil və stasionar telefonların abunə və danışıq xərclərinin ödənilməsinin elektron ödəniş formasında aparılması təmin edilib. Əhalinin nağdsız ödənişlərə marağının artırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi ilə birgə mükafatlandırma tədbirləri keçirilib, 2017-ci ilin birinci yarısında 232 nəfər şəxsə 15 min manat dəyərində müxtəlif qiymətli hədiyyələr verilib. Ödəniş sistemlərinin inkişaf etdirilməsi məqsədilə POS-terminalların quraşdırılması diqqət mərkəzində saxlanılıb, cari ilin birinci yarısında 48 ədəd POS-terminal quraşdırılaraq onların sayı 1 iyul 2017-ci il tarixə 1250 ədədə çatdırılıb. 2017-ci ilin 6 ayı ərzində POS-terminallar və digər ödəniş vasitələri ilə aparılan nağdsız əməliyyatların həcmi keçən ilin müvafiq dövrü ilə müqayisədə 1 milyon 611 min manat artaraq 15 milyon 916 min manat olub. Vətəndaşlara müasir bank xidməti göstərilməsi məqsədilə 56-sı Naxçıvan şəhərində, 47-si isə rayon mərkəzlərində və böyük kəndtipli yaşayış mərkəzlərində olmaqla, 103 ədəd bankomatla xidmət göstərilib.

İclasda bank əmanətlərinin də əhəmiyyətinə toxunularaq bildirilib ki, 2017-ci il 1 iyul tarixə muxtar respublikada fəaliyyət göstərən banklarda fiziki şəxslərin əmanətlərinin həcmi 6 milyon 574 min manat, o cümlədən xarici valyuta ilə 2 milyon 815 min manat təşkil edir. Banklara qoyulan əmanətlərin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 309 min manat artıb. Eyni zamanda banklara qoyulan əmanətlər üçün müddətindən və növündən asılı olaraq 2 faizdən 15 faizədək illik faiz ödənilir.

Tədbirdə gələcəkdə görüləcək işlərdən də danışılıb.

Sonra çıxışlar dinlənilib.



Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyində keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin baş direktoru Hikmət Əsgərov çıxış edərək bildirib ki, sığorta işinin səmərəliliyinin artırılması məqsədilə cari ilin aprel ayında Dövlət Baş Sığorta Agentliyi Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi ilə birgə daşınmaz əmlakın və onun istismarı zamanı mülki məsuliyyətin icbari sığortası, may ayında Daxili İşlər Nazirliyi Dövlət Yol Polisi İdarəsində muxtar respublikada avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası, iyun ayında isə Sədərək Rayon İcra Hakimiyyəti ilə birlikdə sığorta işinin vəziyyəti barədə müşavirələr keçirib, görülmüş işlər təhlil olunub. Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə sığorta olunmayan sürücülərin icbari sığortaya cəlb olunması məqsədilə 2017-ci ilin birinci yarımilində Dövlət Sığorta Agentliyi və Dövlət Yol Polisi əməkdaşları ilə birlikdə müntəzəm reydlər keçirilib. Vətəndaşlara məxsus daşınmaz əmlakın (yaşayış evlərinin, mənzillərin) icbari sığortasının aparılması məqsədilə yerli icra nümayəndələri ilə birlikdə gündəlik təbliğat-izahetmə işləri görülüb.

Vurğulanıb ki, 2017-ci ilin ötən 6 ayında sahibkarlara məxsus daşınmaz əmlakın icbari sığortası və daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortasının həyata keçirilməsi və sığorta müqavilələri bağlamayan vətəndaşların sığortaya cəlb olunması məqsədilə Fövqəladə Hallar Nazirliyinin əməkdaşları ilə birlikdə maarifləndirici söhbətlərin aparılmasına davam etdirilib.

Görülmüş işlərin yekunu olaraq 2017-ci ilin ilk 6 ayında Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi üzrə hüquqi və fiziki şəxslərdən sığorta tədiyələrinin toplanması həcmi 2016-cı ilin ilk yarısı ilə müqayisədə 28,8 faiz artıb. Ümumilikdə, icbari sığortalar üzrə bağlanılmış sığorta müqavilələrinin sayı 3213 ədəd çox olub.

Kənd təsərrüfatı sığortası sahəsində də görülmüş işlərdən danışan baş direktor bildirib ki, 2017-ci ilin ötən dövründə muxtar respublikanın rayonlarında yerli icra nümayəndələri ilə birlikdə kənd təsərrüfatı, xüsusilə bitkiçilik sığortasının əhəmiyyəti barədə izahat-məlumatlandırma işləri aparılıb və 650 müqavilə bağlanılıb.

Tədbirdə işdə yol verilmiş nöqsanlardan da bəhs olunub və qarşıdakı dövrdə rayon (şəhər) Dövlət Sığorta agentliklərinə sığorta tədiyələrinin toplanması işində daha səylə çalışmaq tapşırığı verilib. İclasda rayon dövlət sığorta agentliklərinin direktorları çıxış edərək görülmüş işlər haqqında məlumat veriblər.

**Əli CABBAROV**

* * *

***"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətində 2017-ci ilin birinci yarımilinin yekunları müzakirə olunub, qarşıda duran vəzifələr müəyyənləşdirilib. Bu münasibətlə keçirilən tədbiri cəmiyyətin direktoru Mahir Əliyev açaraq məruzə ilə çıxış edib.***

Bildirilib ki, 2017-ci ilin ilk 6 ayında muxtar respublikamızda qatarların hərəkətinin təhlükəsizliyi təmin edilib, bu sahədə bir sıra tədbirlər həyata keçirilib. Ötən il dekabrın 29-da fəaliyyətə başlamış Naxçıvan-Məşhəd-Naxçıvan beynəlxalq sərnişin qatarının təhlükəsizliyinin təmin olunması üçün müvafiq tədbirlər görülür. Növbəti mərhələdə isə bu dəmir yolu xətti ilə yükdaşımaların da həyata keçirilməsi nəzərdə tutulur. Bununla yanaşı, yaxın gələcəkdə Bakı-Tbilisi-Qars dəmir yolunun Naxçıvan-Culfa-Təbriz dəmir yolu xəttinə birləşdirilməsi istiqamətində də zəruri tədbirlər həyata keçirilir.



Qeyd olunub ki, 2017-ci ilin birinci yarımilində Culfa Lokomotiv Deposunda lokomotivlər 152 min 173 kilometr yürüş edib, 15 milyon 711 min ton/kilometr yük daşınıb. Plana uyğun olaraq 4,5 min ton yük vurulması və daşınması nəzərdə tutulduğu halda, faktiki olaraq 17 min 700 ton yük daşınıb. Hesabat dövründə cəmiyyət üzrə 73 min 808 sərnişin daşınıb ki, nəticədə, planproqnozda nəzərdə tutulan tapşırığa 102,5 faiz əməl olunub. Bundan əlavə, Culfa İstismar Deposunda 2017-ci ilin ilk 6 ayı ərzində 64 ədəd vaqon cari, 2 ədəd sərnişin vaqonu isə depo təmiri edilib.

Mahir Əliyev bildirib ki, muxtar respublikamızda aparılan tikinti-quruculuq tədbirləri "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin tabeliyindəki obyektlərin də simasını xeyli dərəcədə dəyişdirib. Bu tədbirlərin davamı olaraq hesabat dövründə Texniki İnzibati Binaların Təmir-Tikinti İdarəsi tərəfindən Ordubad dəmiryol sərnişin vağzalı və Yol Sahəsinin inzibati binalarında, Ordubad İdarəetmə Mərkəzi və Yol Sahəsinin yardımçı binalarında, yük anbarında, sərnişin və yük platformalarında və onları əhatə edən ərazidə yenidənqurma və təmir işləri aparılıb, eyni zamanda Aza və Naxçıvançay Təhlükəsizlik Komandası inzibati binalarında əsaslı təmir işləri, həmçinin Culfa stansiyasında müasir tələblərə cavab verən yeni İstismar Vaqon Deposunun tikintisi davam etdirilir.

Vurğulanıb ki, praktik biliklərin artırılması və bu sahədə kadrların hazırlanması məqsədilə cari ilin ötən dövründə Naxçıvan Dövlət Universitetinin 29, Naxçıvan Dövlət Texniki Kollecinin isə 23 tələbəsi dəmir yolunun ayrı-ayrı strukturlarında istehsalat təcrübəsi keçiblər.

İclasda işdə yol verilmiş nöqsanlara da toxunulub, qısa müddətdə onların aradan qaldırılması üçün lazımi addımların atılmasının zəruriliyi vurğulanıb.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

Tədbirə "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Mahir Əliyev yekun vurub.

**Səbuhi HƏSƏNOV**

## Ənvər Ünlü: “Naxçıvan Duzdağı gözəl təbii müalicə mərkəzidir”



*Xəbər verdiyimiz kimi, iyulun 31-də Türkiyə Respublikası İğdır Vilayətinin yeni valisi Ənvər Ünlü Naxçıvan Muxtar Respublikasına səfərə gəlib.*

Səfər çərçivəsində qonaq əvvəlcə Azərbaycan xalqının ümummilli liderinin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini və Heydər Əliyev Muzeyini ziyarət edib.

Ənvər Ünlü daha sonra Naxçıvan Dövlət Xalça Muzeyinə və Duzdağ Fizioterapiya Mərkəzinə gəlib, həmin mədəniyyət və səhiyyə müəssisələri ilə yaxından tanış olub.

İğdır Vilayətinin valisi Duzdağ Fizioterapiya Mərkəzində Naxçıvan televiziyasına müsahibə verib. O deyib: “Bu səfərim tanışlıq xarakteri daşıyır. Naxçıvanda keçirdiyim görüşlərdə qarşılıqlı iqtisadi-ticarət əlaqələrindən, idxal-ixrac imkanlarımızdan və digər sahələrdəki əməkdaşlığımızın gələcək perspektivlərindən danışdıq. İnanırıq ki, hər iki tərəfdə gömrük məntəqələrində aparılan infrastruktur quruculuğu tədbirləri iqtisadi əlaqələrimizin inkişafına öz töhfəsini verəcəkdir”.

Naxçıvan Muxtar Respublikasına səfərindən məmnun olduğunu bildirən Ənvər Ünlü qeyd edib ki, Duzdağ Fizioterapiya Mərkəzinin təbii müalicə imkanları onun diqqətini cəlb edib: “Dünyanın bir çox ölkələrindən Duzdağ Fizioterapiya Mərkəzinə müalicə olunmaq üçün gəlirlər. Bura Türkiyədən gələn insanlar da az deyil. Mərkəzlə tanışlıq zamanı gördük ki, səhiyyə müəssisəsində xəstələrin rahatlığının təmin olunması üçün hərtərəfli şərait yaradılıb. Mən Duzdağın necə gözəl bir müalicə mərkəzi olduğunu öyrəndim”.

İğdır Vilayətinin valisi Naxçıvandan dərin təəssüratlarla ayrıldığını bildirərək deyib ki, iki dövlət, bir millət olan qardaş ölkələrin əlaqələrinin inkişafında Naxçıvan Muxtar Respublikası əhəmiyyətli rola malikdir.

**Xəbərlər şöbəsi**

*Dünən M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında 1 avqust – Azərbaycan Əlifbası və Ana Dili Günü münasibəti ilə tədbir keçirilib.*

## Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü qeyd edilib

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı Aygün Hüseynova bildirmişdir ki, Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsi və inkişafı dahi şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər hakimiyyətdə olduğu bütün dövrlərdə Azərbaycan dilini milli varlığın əsas amili kimi daim diqqət mərkəzində saxlamışdır.

Ulu öndər Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyada Azərbaycan dilinin dövlət dili olması öz əksini tapmışdır.

Tədbirdə M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının direktoru Aytəkin Qəhrəmanova “Mənim varlığım öz ana dilim”, A.Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanasının direktoru Kəmaləddin Axundov “Dilə münasibət vətən sevgisidir” mövzularında çıxış etmişlər.

Tədbirin sonunda ana dilimizə həsr olunmuş sərgiyə baxış olmuşdur.

**Əli RZAYEV**

## Duzdağ Fizioterapiya Mərkəzində 70 yerlik yeni palatalar istifadəyə verilib

Hər il yay aylarında Duzdağ Fizioterapiya Mərkəzinə bronxial-astma və digər yuxarı tənəffüs yolları xəstəliklərindən təbii üsullarla müalicə olunmaq üçün müraciət edənlərin sayında artım müşahidə olunur. İlin əvvəlindən müalicə üçün mərkəzə gələn, təqribən, 3 minə yaxın pasiyentin üçdə ikisi uşaqlar, 200 nəfərə yaxını isə xarici ölkə vətəndaşıdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən mərkəzin xəstəxana hissəsində işlənmiş şaxtalarda əsaslı yenidənqurma və təmir işləri aparılıb, yer sayı bir şaxtada 49, digər şaxtada isə 21 olmaqla, ümumilikdə, 70 çarpayı artırılıb.

Mərkəzdə yaradılan müasir şərait, ixtisaslı həkimlərin və texniki heyətin pasiyentlərlə yaxından maraqlanması və habelə təşkil olunan digər servislər istər müalicə məqsədilə gələnlər, istərsə də onları müşayiət edənlərin rahatlığını təmin edir. Mərkəzdə 25 nəfərlik tibbi personal da iki növbədə qəbul olunan pasiyentlərə günboyu xidmət göstərir.

Ölkəmizin hər yaşdan və sosial kateqoriyadan olan vətəndaşları mərkəzdə pulsuz müalicə olunurlar. Xarici ölkələrdən gəlmiş turistlər üçün də Duzdağ çox əlverişlidir.



Mərkəzdə bu gün Rusiya Federasiyasından, Türkiyədən, İrandan, Gürcüstandan, Qazaxıstandan, Qırğızıstandan və digər ölkələrdən gələn xəstələr müalicə olunurlar.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

2 avqust Azərbaycan Kinosu Günüdür

## Azərbaycan kinosu böyük inkişaf yolu keçib

***Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin “Azərbaycan Kinosu Gününün təsis edilməsi haqqında” 2000-ci il 18 dekabr tarixli Sərəncamına əsasən hər il avqustun 2-si ölkəmizdə “Azərbaycan Kinosu Günü” kimi qeyd olunur.***

Dünya kinosunun tarixi ilə üst-üstə düşən Azərbaycan kinosu ilk vaxtlar səssiz və ağqara, sonradan isə rəngli və səsli formada olub. XIX əsrdən etibarən cərəyan edən maarifçilik hərəkatının, dünyəvi teatrın və mətbuatın inkişafı Azərbaycanda kinonun yaranmasına kömək edən amillərdən idi. 1898-1935-ci illərdə həm sənədli, həm də bədii filmlər yaradılmışdır. 1898-ci ildən başlayaraq Azərbaycanda “Şəhər bağında xalq gəzintisi”, “Bazar küçəsi sübhçağı”, “Qatarın dəmiryol stansiyasına daxil olması”, “Bibiheybətdə neft fontanı yanğını” və başqa filmlər çəkilmişdir. 1900-cü ildə Parisdə keçirilən ümumdünya kino sərgisində “Bibiheybətdə neft fontanı yanğını” və “Balaxanıda neft fontanı” xronikaları nümayiş etdirilmişdir.



1945-ci ildə yaradılan və ekran sənətimizin qızıl fonduna daxil olan “Arşın mal alan” filmi kinomuzda yeni keyfiyyət dəyişikliyindən xəbər verir. Bu günə qədər Azərbaycan milli kinosunun ən uğurlu və parlaq nümunələri sırasında dayanan “Arşın mal alan” indiyədək 136 ölkədə nümayiş etdirilmiş və 86 dilə tərcümə olunaraq kinomuza dünya şöhrəti gətirmişdir. 1956-cı ildə kinomuzda daha bir keyfiyyət dəyişikliyi baş verir, bu gün də sevilə-sevilə baxılan “O olmasın, bu olsun” bədii filmi ekranlaşdırılır.

İncəsənətimizin böyük hamisi ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyinin birinci dövründə milli kinonun inkişafı üçün mühüm tədbirlər həyata keçirilmişdir. 1970-1980-ci illərdə Azərbaycan kinematoqrafçılarının yaratdıqları dəyərli filmlər milli-mənəvi dəyərlərin təbliğində, milli özünüdərk duyğularının oyadılmasında, milli şüurun formalaşmasında və yetişməkdə olan gənc nəslin tərbiyəsində mühüm rol oynamışdır. Bu filmlər məzmun və janr etibarilə kino sənətimizə yeniliklər gətirmiş və bu sevilən sənəti xalqa daha da yaxınlaşdırmışdır. Azərbaycan filmləri içərisində müxtəlif peşə və sənət adamlarının həyatından bəhs edən, tarixi yaddaşı özünə qaytaran filmlərin çox olması ekran sənətimizin mövzu əlvanlığının göstəricisidir.

Ötən əsrin 70-80-ci illərində kino salnaməmizin unudulmaz səhifələrini təşkil edən, mədəniyyətimizin qızıl fonduna daxil olan tarixi filmlər yaradılmış, görkəmli əsərlər ekranlaşdırılmış, müasir mövzulu və sənətkarlıq baxımından diqqətəlayiq filmlər çəkilmişdir. Həmin dövrdə 110 bədii, 500 sənədli və elmi-kütləvi, eləcə də 44 cizgi filmi istehsal olunmuşdur. “Bir cənub şəhərində”, “Bizim Cəbiş müəllim”, “Dəli Kür”, “Şərikli çörək”, “Dərviş Parisi partladır”, “Yeddi oğul istərəm”, “Axırıncı aşırım”, “Nəsimi”, “Dədə Qorqud”, “Babək”, “Nizami” və başqa bədii filmlərimiz bu illərdə çəkilib. Bu filmlərimizi fərqləndirən əsas cəhətlərdən biri də xalqımızın həyatına, başlıcası isə çoxəsrlik tariximizə, adət-ənənələrimizə, milli dəyərlərimizə daha dərindən nüfuz etməsi idi. Sovet imperiyası dövrünün çətinliklərinə baxmayaraq, ulu öndərin təşəbbüsü ilə milli kinomuzun qızıl fondu sayılan nümunələr yaradılmışdır.

Müstəqillik illərində milli kinomuza xüsusi diqqət yönəldilməsi də məhz ulu öndərin adı ilə bağlıdır. Ötən əsrin 90-cı illərində məhv olmaq təhlükəsi ilə üzləşən incəsənətin bu vacib sahəsi 1993-cü ildə ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. 1996-cı ildə Azərbaycan Dövlət Film Fondu yaradılmış, 1998-ci il avqustun 19-da “Kinematoqrafiya haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş, dövlət kinematoqrafiyasının hüquqi bazası formalaşmışdır.

Bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən milli kino sənətinin inkişafı üçün mühüm işlər həyata keçirilir. Ölkə başçısı 2008-ci il 4 avqust tarixli Sərəncamla “Azərbaycan kinosunun 2008-2018-ci illər üçün inkişafına dair Dövlət Proqramı”nı təsdiq etmişdir. Proqramda kinofilmlərin istehsalının artırılması, eləcə də müasir kino avadanlıqları və texnikası ilə təchizat, xarici ölkələrlə birgə film istehsalının genişləndirilməsi, kinoteatrların yenidən qurulması nəzərdə tutulmuşdur. Artıq ölkəmizdə kinostudiyaların maddi-texniki bazaları gücləndirilmiş, yeni filmlər çəkilmiş, kino sənətimiz inkişafın müasir mərhələsinə qədəm qoymuşdur. “Azərbaycanfilm” kinostudiyasının istehsalı olan aktual mövzulu filmlər təkcə son illər 50-dən çox beynəlxalq film festivalında Azərbaycan gerçəkliklərini dünyanın kino auditoriyasına çatdırmış və nüfuzlu mükafatlara layiq görülmüşdür. “Dolu”, “Nabat”, “Çölçü”, “Buta”, “Xeyirlə Şərin rəqsi” kimi filmlərimiz müstəqillik illərində Azərbaycan kinosunun mövzu və sənət axtarışlarından xəbər verir.

Azərbaycan kino sənətinin inkişafında Naxçıvan torpağının yetirdiyi sənətkarlar Qəmər Salamzadə, Rza Təhmasib, Həbib İsmayılov, Məmmədhüseyn Təhmasib, Şamil Mahmudbəyov, Ramiz Mirişli, Elxan Qasımov və başqalarının dəyərli xidmətləri olmuşdur. Unudulmaz filmlərimizdən olan “Nəsimi”, “Dədə Qorqud”, “Babək”, “Əzablı yollar”, “Gümüşgöl əfsanəsi”, “Doğma sahillər” və başqa ekran əsərlərinin müəyyən hissələri və natura çəkilişləri Naxçıvan Muxtar Respublikasında aparılmışdır. Bu gün də Naxçıvan Muxtar Respublikasında kino sənətinin inkişafına böyük diqqət və qayğı göstərilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə Naxçıvan şəhərində “Gənclik” Mərkəzi yaradılmış, Şərurda “Bahar”, Şahbuzda “Araz” kinoteatrları, Ordubad və Babək Rayon Mədəniyyət evləri yenidən qurulmuş, ən müasir videoproyektorlarla, lazımi texniki avadanlıqlarla təchiz olunmuşdur.

Muxtar respublikamızda Dövlət Film Fondunun fəaliyyət göstərməsi də bu sahəyə göstərilən qayğının nümunəsidir. Hazırda Naxçıvan Dövlət Film Fondunda 4700-dən çox film saxlanılır. Azərbaycan filmləri ilə yanaşı, burada müxtəlif ölkələrdə istehsal olunmuş bədii, sənədli filmlər, cizgi filmləri, qısametrajlı, elmi-kütləvi, Azərbaycan dilinə dublyaj edilmiş filmlər də mühafizə olunur. Eyni zamanda fondda 100-dən çox Azərbaycan filminin ssenarisi ilə tanış olmaq imkanı da mövcuddur.



*Azərbaycan kinosu zamanın böyük sınaqlarından şərəflə çıxaraq xalqa xidmət yolunu tutmuş və sevilən sənət sahəsinə çevrilmişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dediyi kimi:* ***“Azərbaycan xalqının bir çox nəsilləri kino sənəti ilə tərbiyələnib, kinonun təsiri altında formalaşıb, inkişaf edib və mədəniyyətə qovuşubdur... Xalqımızın inkişaf yolunda Azərbaycan kinosunun xidmətləri əvəzsizdir”.***

**Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti**

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

## Azərbaycan xalqının məişətində keçədən geniş istifadə olunub

***Xalqımızın əsrdən-əsrə, nəsildən-nəslə yaşadılan müxtəlif sənətkarlıq ənənələri onun qədim tarixə, yüksək mədəniyyətə, milli və mənəvi dəyərlərə malik olduğunu bir daha göstərir. Belə sənət sahələrindən biri də keçəçilikdir. Keçəçiliyin nə vaxt yaranması haqqında dəqiq məlumat yoxdur. Deyilənlərə görə, yaz fəslində yunları qırxılmayan qoyunların nəm yerlərdə yatarkən yunlarının bir-birinə keçərək qəlib şəklinə düşdüyünü görən çobanlar yunu isladaraq bükməyə, döyəcləməyə başlamış və beləliklə, keçə əldə etmişlər. Daha sonra isə yunu torpaq və ya başqa maddələrə boyayaraq rəngli keçələr düzəltmişlər.***

Aparılan tədqiqatlar təsdiq edir ki, keçəçilik sənəti Azərbaycanda qədim zamanlardan inkişaf edib. Hörmə, tikmə, toxumadan fərqli olaraq, bu iş ixtisaslaşmış ustalar tərəfindən basma üsulu ilə aparılıb. Azərbaycanda maldarlığın, xüsusən də qoyunçuluğun geniş yayılması keçəçiliyin təşəkkülünə zəmin yaradıb. Eramızdan əvvəl V əsrdə yaşamış yunan tarixçisi Herodot sakların başda düz dayanan və keçədən tikilmiş ucu şiş papaq qoyduqlarını qeyd edib. Belə papaqları azərbaycanlılar "börk" adlandırırlar.



Arxeoloji qazıntılar zamanı Altay dağlarının ətəklərində, Pazırık kurqanında tapılmış, eradan əvvəl IV-III əsrlərə – Hun imperiyası dövrünə aid edilən keçə yəhər örtüyü bu sənətin qədimliyini və Türk dünyasına məxsusluğunu sübuta yetirir. Buradan tapılmış keçədən hazırlanan uzunboğaz çəkmə və corablar, geyim nümunələri ondan məişətdə geniş istifadə olunduğunu göstərir.

Keçədən məişətdə istifadə olunması haqda "Kitabi-Dədə Qorqud" dastanında da məlumat var. Dastanda deyilir: "Kimin ki, oğul-qızı yox, qara otağa qondurun, qara keçə altına döşəyin, qara qoyun yəxnisindən önünə gətirin".

Müəyyən tarixi mənbələrdən məlum olur ki, alaçıqların örtülməsi üçün keçədən istifadə edilib. Belə ki, türklərə məxsus alaçıqlar keçə ilə örtülürmüş. Tədqiqatçıların fikrincə, qədim dövrlərdə yaylaqdakı alaçıqların hansı etnosa aidliyi uzaqdan bəlli olub. Hətta bu alaçıqların hansı tayfaya məxsusluğunu da onların formasından və rəngindən təyin etmək mümkün idi.

Qeyd edək ki, yayda sərinlik yaradan, qışda soyuqdan qoruyan keçədən XIX-XX əsrin əvvəllərində də alaçıq və dəyələrin üstünün və yanlarının örtülməsində, yaşayış evlərinin döşənməsi və bəzədilməsində, namazlıq, qapılıq, yapıncı, papaq, corab, əba və digər məişət ehtiyacları üçün geniş istifadə edilib. Keçələr yunun təbii rəngindən asılı olaraq ağ, qara və qəhvəyi rəngdə olub. Bunların içərisində isə ən qiymətlisi ağ rəngli yundan hazırlanmış keçələr sayılırdı. Bununla yanaşı, vaxtilə qırmızı, yaşıl, mavi, narıncı rənglərə boyanmış bəzəkli keçələr də hazırlanıb. Nəmənd, heybə, yəhərüstü, tərlik və başqa keçələrin bəzəkləri, əsasən, zoomorf (dağ keçisi, ceyran, aslan, heyvanların döyüş səhnələri), həndəsi (romb, düzbucaq, üçbucaq), nəbati (budaq, gül-çiçək), kosmoqonik (ay, Günəş, ulduz) ornamentlərindən, həmçinin "zəncir", "qoç buynuzu", "qaz ayağı", "ürək" və sair naxışlardan ibarət olub. Kənarları isə xalçalarda olduğu kimi yelənlə əhatə edilib.

Keçənin hazırlanma üsulları da maraqlıdır. Belə ki, əvvəlcə qoyunlar xüsusi gölməçələrdə yuyulur və sonra qırxılır. Qırxılmış yun didilir və bir neçə nəfər tərəfindən döyülür, üzərinə ılıq su əlavə edilir. Sonra yun tapdalanır, buna yunun təpitməsi deyilir. Keçə hazırlanarkən yerinin hamarlığı, genişliyi və rahatlığı da nəzərə alınmalıdır. Keçəçilik sənətində həllaclar qohum-qonşunun köməyindən də istifadə edərmişlər. Çünki keçənin hazırlanması prosesi çətin olduğu üçün burada xeyli adamın iştirakı tələb olunurdu.

Ölkəmizdə olduğu kimi, Naxçıvanda da keçə sənəti vaxtilə geniş yayılıb. Qədim diyardan toplanan etnoqrafik materiallardan məlum olur ki, burada keçələr özünəməxsus formada hazırlanırmış. Belə ki, yun dididildikdən sonra onu ağ parçanın üstünə sərərmişlər. Bundan sonra yun sərilmiş ağ parçanı hamarlanmış, yonulmuş, düz silindrik ağaca büküb hər iki tərəfdən bağlayırdılar. Bu ağacın adına "ox" deyirdilər. 5-6 nəfərin iştirakı ilə onu ayaqlayır, sonra ayaqları ilə vura-vura fırladırdılar ki, yetişsin. Salınmış yunun üzərinə hərdənbir ılıq su və ya yumurta sarısı səpirdilər ki, yun bir-birinə tez yapışsın. Yun bitişib tam keçə halına gələnə qədər bu iş davam etdirirlər. Yunun yapışması üçün küncləri toxmaqla döyülürdü. Hazırlanan məhsul "qəlib" adlanırdı.

Əldə edilən məlumatlara əsasən, etnoqrafik çöl materiallarına görə, muxtar respublikanın bəzi kəndlərində keçəçi məhəllələri mövcud olub ki, bu da qədim diyarımızda keçəçiliyin inkişafını göstərən amillərdəndir. Keçəni salana "keçəçi", "həllac", həm də "atıcı" deyərlər. Keçə salmaq üçün güzəm yunundan, yəni quzu və payız yunundan istifadə edilirdi. Keçəçi ustaların söylədiyinə görə, yaz yunundan keçə salmaq olmaz. Ona görə ki, saçaqlı yun uzun olduğu üçün bitmir, yəni bir-birinə yapışmır. 7-8 qoyun yunundan yalnız bir keçə hazırlana bilər. Alaçığın üstünü örtmək üçün bir neçə keçəni bir-birinə tikərdilər. Alaçığın baş hissəsini tutmaq üçün baş, yanlarını örtmək üçün yan, qabağını örtmək üçün isə qənşər qəlibdən istifadə edirdilər.

Keçəçiliklə bağlı müxtəlif deyimlər də mövcuddur:

*Atıcıyam yayım var,*
*Çaxmağım var, qovum var.*
*Yunu yığın, gətirin,*
*Burda mənim ovum var.*

Günümüzdə keçədən hazırlanan xalçalara ancaq kənd evlərində rast gəlinir. Keçə nümunələri isə hazırda Naxçıvan Dövlət Xalça Muzeyində saxlanılır.

Bu gün qədim sənət növləri, milli-mənəvi dəyərlərimiz qorunur yaşadılır, gələcəyə inamla çatdırılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Təcrübə göstərir ki, xalq öz milli-mənəvi dəyərlərinə sahib çıxmasa, onlar başqa xalqlar tərəfindən özününküləşdirilər, mənimsənilər. Ona görə də biz milli-mənəvi dəyərlərimizə sahib çıxmalı, yaşatmalı və təbliğ etməliyik".***

**Nuray ƏSGƏROVA**

*Yeni nəşrlər*

## "Naxçıvan Muxtar Respublikasının seolitləri, mövcud istifadəsi və perspektivləri" kitabı işıq üzü görüb




*AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun Sorbsiya prosesləri laboratoriyasının müdiri Günel Məmmədovanın "Naxçıvan Muxtar Respublikasının seolitləri, mövcud istifadəsi və perspektivləri" kitabı işıq üzü görüb.*

Geologiya-mineralogiya elmləri doktoru Məmməd Çıraqovun elmi məsləhətçiliyi və redaktorluğu, kimya elmləri doktoru Bayram Rzayev, kimya elmləri doktoru Famil Sadıqov və geologiya-mineralogiya elmləri doktoru Musa Məmmədovun rəyləri ilə nəşr olunan kitab ön söz, giriş, üç fəsil və ədəbiyyat siyahısından ibarətdir.

Nəşrdə müasir analiz metodlarından istifadə etməklə Naxçıvan Muxtar Respublikasının təbii mineralı – seolitin termiki davamlılığı, dehidratlaşma xüsusiyyətləri, sərt təsirlərə qarşı davamlılığı, ionmübadilə xassələri öyrənilib, seolitlərə xas olan quruluş kəmiyyətləri hesablanıb. Təbii seolitlərin quruluşları, tərkibi, fiziki-kimyəvi xassələri, təsnifatı və nomenklaturası, tətbiq sahələri haqqında yığcam məlumatlar şərh edilib.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

***Havaların isti keçməsi insanları bəzi çətinliklərlə qarşı-qarşıya qoyur. Belə vaxtlarda insanlar bəzən günvurma, bəzən də zəhərlənmədən xəstəxanalara müraciət edirlər. Ötən günlərdə qəzetimizin səhifələrində günvurma, ondan necə qorunmaq barədə oxucularımızı məlumatlandırmışdıq. Bu dəfə isə, xüsusilə də belə isti günlərdə təsadüf edilən qida zəhərlənmələri haqqında danışacağıq.***

*Həkim məsləhəti*

## Qida zəhərlənmələrinin qarşısını necə almaq olar?

Qida zəhərlənmələri nədən baş verir və əsas əlamətləri hansılardır? Bundan necə qorunmaq olar? Və ən əsası nə üçün yay mövsümündə qida zəhərlənmələrinin sayı artır? İnsanları narahat edən bu və digər suallara aydınlıq gətirmək üçün Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinə üz tutduq. Mərkəzin Bakterioloji laboratoriyasının həkim-laborantı Solmaz Təhməzova bu barədə danışaraq dedi ki, havalar isti keçdikdə müəyyən patogen mikroblar sürətlə çoxalır. Buna görə də yay aylarında qida zəhərlənmələrinin sayı artır. Eyni zamanda yayda bəzi mövsümi xarakterli yeməklər də zəhərlənmələrə səbəb ola bilər.

Həkim-laborantın sözlərinə görə, insanlar hər zaman eyni səbəbdən zəhərlənmir. Onlar müxtəlif bakteriyalara yoluxaraq zəhərlənirlər. Məsələn, bunlardan biri olan botulizm bakteriyaları qapalı mühitdə olan qidalarda artmağa başlayır ki, buna yoluxan insan vaxtında həkimə müraciət etməsə, zəhərlənmə hadisəsi ölümlə nəticələnə bilər. Bu halda xəstə qusma, çəpgörmə, mədə-bağırsaq sisteminin pozulması halları ilə rastlaşır. Adıçəkilən bakteriyalardan zəhərlənmə ən çox yayda müxtəlif tərəvəzlərdən, qışda isə turşulardan olur. Tərəvəzlər yaxşı yuyulmadan turşuya qoyularsa, bu, ciddi fəsadlar yaradır. Bunun üçün tərəvəzlər turşuya qoyulmamışdan əvvəl axar suda yaxşıca yuyulmalıdır. Qeyd edək ki, salmonellyoz bakteriyalarından da zəhərlənmə halları baş verir. Bu zaman xəstədə istilik qalxır, qusma, ishal halları müşahidə olunur. Bu cür zəhərlənmə insanın sinir sisteminə də mənfi təsir göstərir.

Solmaz həkim qeyd etdi ki, qida zəhərlənmələri baş verdiyi zaman xəstəxanalara müraciət edən xəstələrin bəziləri bu laboratoriyaya müraciət edir və onların hansı qidadan, hansı bakteriyalarla zəhərləndiyi müəyyənləşdirilir. Bundan sonra xəstə müalicə olunur.

Əlbəttə ki, sağlamlığımızın qeydinə qalmaq da bizim öz əlimizdədir. Bəzi qaydalara riayət edərək belə xoşagəlməz halların qarşısını ala bilərik. Qida zəhərlənmələrinə məruz qalmamaq üçün, ilk növbədə, tez xarab olan ərzaq məhsullarını soyuducuda saxlamalıyıq. Çiy ət, balıq və yumurta kimi qidalardan istifadədə son dərəcə ehtiyatlı olmaq, həmin məhsulları soyuducuda saxlamaq lazımdır. 2 saat ərzində soyuducudan kənarda qalan süd məhsullarından istifadə etmək olmaz.

Təmizlik sağlamlığın rəmzidir. Bütün mətbəx masalarını tez-tez silib təmizləməliyik. Meyvə və tərəvəzlərin istifadədən əvvəl yaxşıca yuyulması məsləhətdir. Yay dövründə tərkibində soda olan hazır məmulatlardan imtina edin, çünki onlar zərərli mikroorqanizmlərin bağırsaqlarda çoxalmasına imkan yaradır. İsti havada turş içkilərdən – limon suyu, kompot və sairdən istifadə etmək lazımdır. Turş mühit, bütövlükdə, bağırsaq infeksiyalarının yaranma riskini azaldır.

Mərkəzin baş həkim əvəzi Zakir Cəfərov isə qida zəhərlənmələrinin profilaktikası barədə danışaraq dedi ki, qida toksiki infeksiyaları kəskin kliniki gedişə malik infeksion xəstəlikdir. Törədicisi, adətən, insan orqanizmindən kənarda yaşayan şərti patogen bakteriyalardır. Toksiki infeksiyaların yaranma səbəbi, adətən, bəlli olmur, lakin streptokok və stafilokokk tərəfindən törədilən toksiki infeksiyalar aşkarlanır. Bu cür toksiki infeksiyalar əldə, bədənin müxtəlif sahələrində olan piodermiyalardan, stomatitlərdən və kəskin xroniki anginalardan sonra müşahidə olunur. Orqanizmdə mikroorqanizmlərin və onların ekzotoksinlərinin həddindən artıq çoxalması xəstəliyin baş verməsinə səbəb olur. Qida toksiki infeksiyaları tək-tək və ya kütləvi xarakterli olur. Tək-tək toksiki infeksiyalar ilin bütün aylarında müşahidə oluna bilər. Kütləvi toksiki infeksiyalar isə, xüsusilə yay aylarında havaların isti keçdiyi günlərdə daha çox müşahidə olunur. Bu cür toksiki infeksiya halları ərzaq məhsulları düzgün saxlanılmadıqda, temperatur rejiminə əməl olunmadıqda yarana bilər.

Muxtar respublikamızda bu cür xəstəliklərin qarşısını almaq məqsədilə pərakəndə və topdansatış mərkəzlərində ərzaq məhsullarının satılmasına ciddi sanitar nəzarət edilir. Həmçinin bazarlarda ət kəsim məntəqələrində kəsilən heyvanların sağlam olmasına, ətin düzgün saxlanılmasına sanitar-gigiyenik nəzarət günbəgün artırılır.

İstənilən halda hər kəs özü-özünün həkimi olmalıdır. Buna görə də, qəbul etdiyimiz qidanın tərkibinə diqqət yetirməliyik ki, sonradan xoşagəlməz hallarla qarşılaşmayaq. Eyni zamanda hansı qidanı nə qədər yediyimizə də diqqət etməliyik. Həkimlər də qeyd edirlər ki, bəzən çox yemək də mədə-bağırsaq sisteminin pozulmasına, zəhərlənmələrə gətirib çıxara bilər. Dahi Nizaminin dediyi kimi: "Bir inci saflığı varsa da suda, artıq içiləndə dərd verir o da". Deyilənlərdən nəticə çıxararaq, isti yay günlərini sağlam başa vurmaq üçün hər birimiz düzgün qidalanmalıyıq.

**Fatma BABAYEVA**

**ŞƏRQ qapısı**
**Baş redaktor:** MEHRİBAN SULTANOVA

*Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
*E-mail: serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Əli Cabbarov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1000. Sifariş № 616